BEYNƏLXALQ MÜNASİBƏTLƏRİN TƏHLİLİ MƏRKƏZİ

# TƏHLİL

# 907-ci düzəlişin ləğvi qarşısındakı maneələr


## Türbət Bağırova

Mirzə İbrahimov 8, Bakı, AZ1005, Azərbaycan

(+994 12) 596-82-39, (+994 12) 596-82-41

E-mail: www.aircenter.az, info@aircenter.az


İYUL 2026

# 907-ci düzəlişin ləğvi qarşısındakı maneələr

3 onillikdən artıq müddətdə qarşılıqlı fayda və ortaq maraqlar əsasında inkişaf edən ABŞ-Azərbaycan münasibətləri Vətən müharibəsi dövründə siyasi gərginlik və fikir ayrılıqları ilə müşayiət olunsa da, 8 avqust 2025-ci il tarixindən etibarən keyfiyyətcə yeni inkişaf mərhələsinə qədəm qoydu. Bu yeni inkişaf mərhələsini şərtləndirən mühüm amillərdən biri həmin gün Vaşinqtonda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və ABŞ Prezidenti Donald Tramp tərəfindən iki ölkə arasında Strateji Tərəfdaşlıq Xartiyasının hazırlanması məqsədilə Strateji İşçi Qrupunun yaradılmasına dair Anlaşma Memorandumunun imzalanması oldu. Yeni mərhələni şərtləndirən digər mühüm amil isə ABŞ Prezidenti tərəfindən "Azadlığa Dəstək Aktı"na (Freedom Support Act) 907-ci düzəlişin tətbiqinin dayandırılması haqqında sərəncamın imzalanması oldu.

10 fevral 2026-cı il tarixində ABŞ vitse-prezidenti Cey Di Vensin Azərbaycana səfəri zamanı Strateji Tərəfdaşlıq Xartiyası imzalanmış, bununla da regional bağlantılar, iqtisadi investisiyalar (xüsusilə süni intellekt və rəqəmsal infrastruktur sahələrində) və təhlükəsizlik istiqamətlərində yeni hədəflərin həyata keçirilməsi üçün hüquqi-siyasi baza formalaşdırıldı. Yəni Strateji Tərəfdaşlıq Xartiyasının imzalanması ilə bağlı öncədən verilən bəyanatlar və müəyyən edilən hədəflər praktik müstəvidə öz əksini tapdı. 907-ci düzəliş məsələsinə gəldikdə isə onun tətbiqi dayandırılsa da, bu məsələnin bütün aspektləri üzrə, yəni onun tam ləğvi ilə bağlı hələ ki, yekun həllə nail olmaq mümkün olmayıb.

Yeganə inkişaf 9 dekabr 2025-ci il tarixində ABŞ Nümayəndələr Palatasına Azadlığa Dəstək Aktına 907-ci düzəlişin ləğvini nəzərdə tutan qanun layihəsinin təqdim edilməsi ilə bağlıdır. Nümayəndələr Palatasının respublikaçı üzvü Anna Paulina Luna tərəfindən irəli sürülən bu qanun layihəsində aşağıdakılar vurğulanır:

1. Azərbaycan Respublikası müstəqillik əldə etdiyi vaxtdan etibarən, ABŞ-nin və onun müttəfiqlərinin etibarlı tərəfdaşı olub, həm müharibə, həm də sülh dövrlərində mühüm əməkdaşlıq nümayiş etdirib;
2. Azərbaycan Cənubi Qafqaz regionunda sülhün təmin edilməsini prioritet istiqamət kimi qəbul etdiyini ardıcıl şəkildə nümayiş etdirib;
3. Azərbaycan və Ermənistan arasında hər iki dövlətin sərhədlərinin və ərazi bütövlüyünün qarşılıqlı şəkildə tanındığı sülh razılaşması əldə edilib.[1]

907-ci düzəlişin ləğvi ilə bağlı olan digər məsələlər isə daha çox simvolik və ritorik xarakter daşıyır. ABŞ Prezidentinin 907-ci düzəlişin dayandırılması müddətinin uzadılması haqqında memorandumu şəxsi qeyd ilə göndərməsi, düzəlişin ləğvi ilə

[1] **H.R.6534 - To repeal a restriction on assistance to Azerbaijan,** https://www.congress.gov/bill/119th-congress/house-bill/6534/text

bağlı qanun layihəsinin həmmüəlliflərindən biri olan Abraham Hamadenin Azərbaycana səfəri bu qəbildəndir.

Bu düzəlişin ləğv edilməməsi ikitərəfli münasibətlərdə müəyyən etimad problemlərinin qalmasına səbəb olur. Bu vəziyyət nəzəri baxımdan onu göstərir ki, gələcəkdə ABŞ administrasiyasında Azərbaycanla münasibətlərə daha fərqli yanaşan siyasi qüvvələr hakimiyyətə gəldiyi halda, həmin mexanizmdən istifadə edərək əməkdaşlıq prosesinə yeni məhdudiyyətlər tətbiq edə bilərlər. Belə perspektiv isə uzunmüddətli strateji tərəfdaşlığın davamlılığı baxımından qeyri-müəyyənlik yaradır.

Digər tərəfdən, 907-ci düzəlişlə ABŞ-Azərbaycan Strateji Tərəfdaşlıq Xartiyasının mahiyyəti arasında normativ uyğunsuzluq mövcuddur. Belə ki, 907-ci düzəliş Azərbaycana birbaşa ABŞ dövlət yardımının göstərilməsini məhdudlaşdıran hüquqi mexanizm kimi çıxış etdiyi halda, Strateji Tərəfdaşlıq Xartiyası siyasi, iqtisadi, texnoloji və təhlükəsizlik sahələrində əməkdaşlığın genişləndirilməsini və institusional əsasda inkişafını nəzərdə tutur. Bu baxımdan, tərəflər arasında əməkdaşlığın inkişafını təşviq edən strateji sənəd ilə həmin əməkdaşlığın müəyyən elementlərini məhdudlaşdıran hüquqi normanın paralel mövcudluğu konseptual ziddiyyət yaradır.

Praktiki müstəvidə 907-ci düzəlişin mövcudluğu əməkdaşlıq layihələrinin həyata keçirilməsinə ciddi maneə yaratmasa da, onun hüquqi qüvvədə qalması qarşılıqlı etimad mühitinə mənfi təsir göstərə, həmçinin Strateji Tərəfdaşlıq Xartiyasından irəli gələn öhdəliklərin reallaşdırılması prosesində əlavə siyasi və institusional çətinliklər formalaşdıra bilər.

Prezident İlham Əliyevin vurğuladığı kimi, “ABŞ Konqresinin 907-ci düzəlişi birdəfəlik ləğv etməsi ikili standartların mirasına son qoymaqla, Azərbaycanın qlobal təhlükəsizlik və sabitliyə töhfə verdiyi bir dövrdə etimad və əməkdaşlığı möhkəmləndirərdi”.[2]

Tramp administrasiyasının bu istiqamətdə mövqeyinin Azərbaycanın lehinə olması siyasi iradənin mövcudluğunu təsdiqləyir. Lakin həm də nəzərə almaq lazımdır ki, Birləşmiş Ştatların qanun qəbuletmə və ləğvetmə mexanizmi çoxmərhəlidir və bu prosesin müəyyən qədər vaxt alacağı aydındır.

[2] https://azertag.az/xeber/prezident_ilham_aliyev_abs_konqresinin_907_ci_duzelisi_birdefelik_legv_etmesi_etimad_ve_emekdasligi_mohkemlendirerdi-3766999

**ABŞ Konqresində qanun qəbuletmə mexanizmi necə işləyir?**

Prosesin necə inkişaf etməsinə mərhələli formada nəzər salaq:

1. İlk olaraq qanun layihəsi ilə bağlı ideyalar aşağıdakı mənbələrdən gələ bilər:

   - ABŞ Senatı və ya Nümayəndələr Palatasının fəaliyyətdə olan üzvü tərəfindən;

   - Konqresə namizədin seçkiqabağı proqramında irəli sürdüyü qanunvericilik təklifindən.

   - Vətəndaş və ya ictimai qruplar tərəfindən onları təmsil edən Konqres üzvünə yeni qanunun qəbul edilməsi və ya mövcud qanuna dəyişiklik edilməsi barədə təqdim olunan müraciət vasitəsilə (petisiya).

2. Qanun layihəsi təqdim edildikdən sonra araşdırılması üçün müvafiq komitəyə göndərilir. Komitə üzvləri layihəni öyrənir, müzakirə edir və zəruri hallarda ona dəyişikliklər edirlər;
3. Daha sonra qanun layihəsi səsverməyə çıxarılması üçün təqdim edildiyi palatanın ümumi iclasında müzakirəyə çıxarılır;
4. Layihə Konqresin bir palatasında qəbul edildiyi təqdirdə, oxşar araşdırma, müzakirə, dəyişiklik və səsvermə mərhələlərindən keçməsi üçün digər palataya göndərilir;
5. Hər iki palata qanun layihəsini qəbul etdikdən sonra onların qəbul etdikləri mətnlər arasında mövcud olan fərqlər aradan qaldırılır. Bundan sonra hər iki palata qanun layihəsinin eyni redaksiyasını yenidən səsverməyə çıxarır. Layihə qəbul edilərsə, baxılması üçün ABŞ Prezidentinə təqdim olunur;
6. Prezident qanun layihəsini nəzərdən keçirir. O, layihəni təsdiq edərək imzalaya və bununla da onu qanuna çevirə bilər. Prezident, həmçinin qanun layihəsini təsdiq etməkdən imtina edə bilər ki, bu da veto adlanır;
7. Prezident qanun layihəsinə veto qoysa, əksər hallarda Konqres səs çoxluğu ilə vetonu aradan qaldıra bilər və bu zaman layihə qanun qüvvəsi alır. Lakin prezident qanun layihəsini imzalamazsa və Konqres bu müddət ərzində iclasda olmadığı üçün layihəni geri qəbul edə bilməzsə, qanun layihəsi avtomatik olaraq qüvvəyə minmir. Bu vəziyyət **“cib vetosu” (pocket veto)** adlanır və Konqres tərəfindən ləğv edilə bilməz.[3]

[3]**How laws are made, https://www.usa.gov/how-laws-are-made**

**Qanun qəbulunu çətinləşdirən obyektiv amillər**

Entoni J. Bennet (Anthony J.Bennet) 2007-ci ildə qələmə aldığı kitabında Konqres və Vestminster qanunvericilik sistemlərinin müqayisəsini aparır. O qeyd edir ki, qanunvericilik təşəbbüslərinin Konqresdən keçirilməsinin çətinliyi ilə bağlı sualın yaranması təbii olsa da, Böyük Britaniya parlamenti ilə bağlı oxşar sual meydana çıxmır. Statistikaya nəzər salan müəllif bildirir ki, ABŞ Konqresinin 109-cu çağırışı (2005-2006) dövründə təqdim edilmiş 13.072 qanun layihəsindən cəmi 395-i (yəni təxminən 3 faizi) qanun qüvvəsi alıb. Eyni dövr ərzində Böyük Britaniya İcmalar Palatasında 219 qanun layihəsi təqdim edilib, bunlardan 58-i qanun kimi qəbul olunub.

Entoni J. Bennet Konqresdə qanunvericilik prosesini çətinləşdirən məqamları 7 istiqamət üzrə qruplaşdırır:

1. İlk olaraq qeyd edir ki, **prosesin gedişatı özlüyündə mürəkkəbdir.** Yenə Britaniya parlamenti ilə müqayisə aparan müəllif bildirir ki, Konqresdə qanunvericilik prosesi ümumi quruluşuna görə Böyük Britaniya parlamentindəki prosesə bənzəyir. Hər iki sistemdə qanun layihələri üç oxunuşdan və komitə mərhələsindən keçir. Lakin aralarında ciddi fərqlər var. Bu fərqlərdən ən mühümü komitə mərhələsinin yeri və rolu ilə bağlıdır. Belə ki, Böyük Britaniya parlamentində komitə mərhələsi ikinci oxunuşdan sonra keçirilir və bu işi əsasən müvəqqəti yaradılan, ümumi fəaliyyət istiqamətinə malik komitələr həyata keçirir. ABŞ Konqresində isə komitə mərhələsi ikinci oxunuşdan əvvəl baş tutur və qanun layihələri daimi fəaliyyət göstərən, bəlli siyasət sahələri üzrə ixtisaslaşmış komitələr tərəfindən müzakirə edilir. Konqresin daimi komitələri isə qanun layihələri üzərində tam düzəliş səlahiyyətinə malikdir. Onlar layihəni həm qəbul və ya rədd edə, həm də ona istənilən dəyişiklikləri edə bilərlər. Nümayəndələr Palatasının və Senatın digər üzvləri adətən bu komitələrin qərarlarına və ixtisaslaşmış biliklərinə hörmətlə yanaşır və çox vaxt onların mövqeyi ilə razılaşırlar.
2. **Superçoxluq (super-majority) tələbi.** Qanunların ABŞ Konqresində qəbul edilməsi ilk baxışdan sadə görünür: layihə hər iki palatada səs çoxluğu qazanmalı və Prezidentin imzasına təqdim olunmalıdır. Lakin praktikada proses bundan xeyli mürəkkəbdir. Entoni Bennet Kit Krebilin (Keith Krehbiel) 1998-ci ildə University of Chicago Press tərəfindən nəşr olunmuş *Pivotal Politics: The Theory of US Lawmaking (Əsas Siyasət: ABŞ Qanunvericiliyinin Nəzəriyyəsi)* adlı kitabına istinad edərək bildirir ki, Konqresdə qanun qəbulu üç əsas maneə ilə üzləşə bilər.
   Birincisi, qanun layihəsi həm Nümayəndələr Palatasında, həm də Senatda sadə səs çoxluğu ilə qəbul edilməlidir.

İkincisi, Senatda qanun layihəsinin səsverməyə çıxarılmasını ləngidən filibaster prosedurunu (Filibaster-Senatda senatorlara müzakirələri uzadaraq qanun layihələrinin qəbulunu gecikdirmək və ya qarşısını almaq imkanı verən prosedurdur) dayandırmaq üçün sadə çoxluq kifayət etmir. Bunun üçün 100 senatorun ən azı 60-nın dəstəyi tələb olunur. Nəticədə, layihə əksəriyyət tərəfindən dəstəklənsə belə, 60 səs toplanmadıqda qəbul edilə bilmir. Məsələn, 2005-ci ildə müdafiə xərcləri haqqında qanun layihəsi 56 senatorun dəstəyini qazansa da, filibaster dayandırılmadığı üçün qəbul olunmamışdı.
Üçüncüsü, Prezident qanun layihəsinə veto qoyarsa, Konqres həmin vetonu yalnız hər iki palatada 2/3 səs çoxluğu ilə aşa bilər. Bu isə qanunun qüvvəyə minməsini daha da çətinləşdirir. Məsələn, 1997-ci ildə Prezident Bill Klinton son dövr abortlarının qadağan edilməsi haqqında qanuna veto qoydu. Nümayəndələr Palatası vetonu aşmaq üçün kifayət qədər səs toplasa da, Senatda tələb olunan 2/3 çoxluq təmin edilmədiyindən qanun qəbul edilmədi. Beləliklə, ABŞ Konqresində qanun qəbul etmək üçün təkcə sadə parlament çoxluğu kifayət etmir. Senatda filibaster qaydası və Prezident vetosu qanunvericilik prosesində əlavə maneələr yaradır. Bu nümunələr göstərir ki, Konqresdə qanunvericilik təşəbbüsləri, hətta nisbətən kiçik bir azlığın müqaviməti nəticəsində uğursuzluğa düçar ola bilər.

3. **Hər iki palatanın qanunvericilik prosesində bərabər səlahiyyətlərə malik olması-**Yenə Böyük Britaniya Parlamenti ilə müqayisə aparan Entoni J.Bennet qeyd edir ki, Vestministerdə qanunvericilik aktının qəbul edilməsi üçün mahiyyət etibarilə yalnız bir palatanın tam razılığı kifayət etdiyi halda, ABŞ Konqresində həmin razılıq hər iki palata tərəfindən verilməlidir. Heç bir palata digərini prosedur baxımından üstələmək və ya onun qərarını aradan qaldırmaq səlahiyyətinə malik deyil. Qanun layihələri hər iki palatanın daimi komitələri tərəfindən təsdiq edilməlidir. Layihələr hər iki palatada ikinci və üçüncü oxunuşlarda səs çoxluğu ilə qəbul olunmalıdır. Uzlaşdırma komitəsinin (Conference Committee) hazırladığı yekun hesabat da hər iki palatada səs çoxluğu ilə təsdiqlənməlidir. Prezident qanun layihəsinə veto qoyduğu halda isə, həmin vetonun aradan qaldırılması üçün hər iki palatada 2/3 səs çoxluğu təmin edilməlidir.
4. **Hər iki palatanın müxtəlif siyasi partiyaların nəzarəti altında olması-** ABŞ-də qanun layihəsinin qəbul edilməsi üçün həm Nümayəndələr Palatası, həm də Senat eyni mətni təsdiqləməlidir. Buna görə də palatalar fərqli partiyaların nəzarətində olduqda razılığa gəlmək çətinləşir və qanunvericilik prosesi ləngiyir. Bu vəziyyət komitələrin işinə də təsir edir. Fərqli partiyaların rəhbərlik etdiyi komitələr müxtəlif siyasi baxışlara və prioritetlərə malik olduqlarından qanun layihələri üzrə razılıq əldə etmək daha çətin olur. Məsələn, 2001-2002-ci illərdə kənd təsərrüfatı komitəsinə Nümayəndələr Palatasında respublikaçı

Larri Kombest, Senatda isə demokrat Tom Harkin rəhbərlik edirdi. Siyasi baxışları fərqli olduğuna görə onların ortaq qərara gəlməsi daha çətin idi.

5. **Prezidentlik institutu və Konqresin müxtəlif siyasi partiyaların nəzarəti altında olması-**"Bölünmüş hakimiyyət" (divided government) termini Ağ Evə bir siyasi partiyanın, Konqresin hər iki palatasına isə digər siyasi partiyanın nəzarət etdiyi vəziyyəti ifadə edir. Bu vəziyyətdə əsas çətinlik qanunvericilik prosesinin başlanğıc və yekun mərhələlərində meydana çıxır. Prezident Konqres qarşısında "Ölkənin vəziyyəti haqqında müraciət"ini (State of the Union Address) müxalif siyasi partiyanın nəzarət etdiyi Konqres qarşısında təqdim etdikdə, onun qanunvericilik gündəliyinin həyata keçirilməsi xeyli çətinləşir. Məsələn, 1990-cı illərin sonlarında demokrat Bill Klinton Respublikaçılar Partiyasının nəzarətində olan Konqreslə işlədiyi dövrdə prezident minimum əməkhaqqının artırılmasını istəyirdi, Respublikaçıların nəzarətində olan Konqres isə federal proqramların maliyyələşdirilməsinin azaldılmasını dəstəkləyirdi.
6. **Konqresdə partiya intizamının nisbətən zəif olması** - Hətta prezidentlər Konqresin hər iki palatasında öz siyasi partiyalarının çoxluğuna malik olduqları hallarda belə, bu, qanunvericilik sahəsində uğuru təmin etmir. Bill Klinton 1993-cü ilin yanvarında Ağ Evdə vəzifəsinin icrasına başladıqda Demokratlar Partiyası Nümayəndələr Palatasında 82, Senatda isə 16 yerlik üstünlüyə malik idi. Həmin ilin yanvarında Konqresin sessiyasının əvvəlində Prezident qanunvericilik sahəsində altı əsas prioritetini açıqladı: iqtisadi stimullaşdırma paketi; büdcə kəsirinin azaldılması paketi; seçki kampaniyalarının maliyyələşdirilməsinin islahatını da əhatə edən siyasi islahatlar; milli xidmət haqqında qanun layihəsi; sosial təminat sisteminin islahatı; və onun qanunvericilik gündəliyinin başlıca istiqaməti olan səhiyyə islahatı. Lakin növbəti iki il ərzində həmin altı prioritetdən yalnız ikisi qanun şəklində qəbul edildi və prezidentin qanunvericilik proqramının əsasını təşkil edən səhiyyə islahatı onların sırasında olmadı. Konqresdə səsvermələrin əksəriyyəti ikipartiyalı (bipartisan) xarakter daşıyır, yəni demokratlar və respublikaçılardan ibarət bir qrup digər demokrat və respublikaçılar qrupuna qarşı səs verir. Klintonun səhiyyə islahatı ilə bağlı təklifləri öz partiyasının narazı üzvləri tərəfindən geri çevrildiyi kimi, Corc H. V. Buşun 1990-cı ildə vergilərin artırılmasına dair təşəbbüsü də yalnız müxalifətdə olan Demokrat Partiyasının dəstəyi ilə qəbul edilmişdi.
7. **Konqresdə hakimiyyətin desentralizasiyası** - 1950-1960-cı illərdə Konqresdə qanun qəbul etdirmək daha asan idi. Bunun üçün əsasən bir neçə güclü liderin - Nümayəndələr Palatasının sədrinin, çoxluq liderinin və əsas komitə sədrinin ("Təpənin kralları" adlandırılan şəxslərin) dəstəyini almaq kifayət edirdi. Lakin 1970-ci illərdən etibarən bu vəziyyət dəyişdi. 1970-1990-cı illərdə Konqresdə səlahiyyətlər daha çox bölüşdürüldü. Əvvəllər əsas qərarları verən azsaylı güclü

komitə sədrlərinin yerinə artıq alt komitə rəhbərləri və digər Konqres üzvləri də daha çox təsir imkanına malik oldular. Nəticədə, qanun qəbul etdirmək çətinləşdi, çünki daha çox şəxsin və qrupun razılığını almaq lazım gəldi.

Beləliklə, hər hansı layihənin qanun statusu alması üçün siyasi iradə, bəzən isə onunla birlikdə sadə səs çoxluğu belə kifayət etməyə bilir. E. Bennetin ifadə etdiyi kimi, “ABŞ Konqresində qanunvericilik təşəbbüslərinin qəbul edilməsində yaranan çətinliklərin əsas səbəbləri institusional və struktur xarakter daşıyır. Başqa sözlə, bu çətinliklər daha çox siyasi sistemin necə qurulması ilə bağlıdır, nəinki onun ciddi səmərəsizliyi ilə. Məsələ sistemin işləməməsində deyil. Əksinə, sistem elə şəkildə qurulub ki, qanunvericilik prosesinin asan və sürətli şəkildə başa çatmasına imkan verməsin”.[4]

**Qanun qəbulunu çətinləşdirən subyektiv amillər**

ABŞ siyasi sisteminin fərqləndirici xüsusiyyətlərindən biri də mütəşəkkil qrupların lobbiçilik fəaliyyəti vasitəsilə qanun qəbuletmə prosesinə çıxışına imkan verməsidir. Bu məsələ “Xarici Agentlərin Qeydiyyatı Haqqında” Qanunda (Foreign Agents Registration Act - FARA) (avqust 1977) öz əksini tapır: “Xarici agentlərdən hökumətin siyasət və proqramlarına təsir göstərmək məqsədilə istifadə edilməsi nə yeni hadisədir, nə də mahiyyətcə mənfi təcrübə. Eyni zamanda, bu, heç də yalnız bədniyyətli hökumətlərə məxsus bir vasitə deyil”.[5]

Yəni ABŞ-də lobbiçilik legitim siyasi fəaliyyət kimi qəbul olunur. Bu fəaliyyətlə məşğul olan təzyiq qrupları arasında müəyyən etnik mənşəyə malik ABŞ vətəndaşlarının yaratdığı etnik lobbilər də yer alır. Onlar Konqresə təsir göstərərək mənsub olduqları etnik qrupların mənşə ölkələrinin siyasi maraqlarını dəstəkləməyə çalışırlar.

Etnik lobbilər Konqresin komitə sistemindən səmərəli istifadə edirlər. Çünki Konqres üzvləri adətən seçicilərinin iqtisadi və siyasi maraqlarına uyğun komitələrdə fəaliyyət göstərməyə üstünlük verirlər. Bu isə maraq qruplarının lobbiçilik, seçki kampaniyalarının maliyyələşdirilməsi və ianələr vasitəsilə qanunvericilik prosesinə təsir imkanlarını artırır.

Burda sual yaradan əsas məqam budur: Etnik lobbi qruplarının qanunvericiliyə təsiri rəsmi Vaşinqtonun milli maraqları, strateji hədəfləri və beynəlxalq səviyyədə bəyan edilən məqsədləri ilə düzmütənasib qaydada uzlaşırmı?

“Diaspora Lobbies and US Government” kitabında qeyd edilir ki, “1992-ci ildə qəbul edilmiş Azadlığa Dəstək Aktının 907-ci maddəsi vasitəsilə erməni-amerikalı lobbiçilər

---

**[4] Anthony J. Bennet, “US CONGRESS”, Oxfordshire, Philip Allan Updates United Kingdom, 2007, səhifə 32-39**

**[5] FARA-ya dair Giriş Bəyanatının B bəndinin birinci paraqrafı. 1977-ci il ABŞ Konqresinin Senat Xarici Əlaqələr Komitəsi, https://www.fara.us/assets/htmldocuments/uploads/24416_1977_-_crs_report_-_fara_-_senate_committee_on_foreign_relations_comm._p_-_secured.pdf .**

Azərbaycanın yeni müstəqillik qazanmış keçmiş sovet respublikalarına yardım göstərilməsi üçün nəzərdə tutulan ABŞ yardım proqramlarından kənarda saxlanılmasına nail oldular. Halbuki Ermənistan hökuməti avtoritar idarəetməyə malik idi, təcavüzkar dövlət kimi qiymətləndirilirdi və ABŞ-nin həmin bölgədə təsirini məhdudlaşdırmağa çalışdığı İran və Rusiya ilə yaxın münasibətlər saxlayırdı."[6]

90-cı illərin əvvəlində olan post-Soyuq Müharibə dövrünün gətirdiyi qeyri-müəyyənlik, erməni diasporunun güclü və yaxşı təşkilatlanmış fəaliyyəti, eləcə də ABŞ-nin Cənubi Qafqaz siyasətində Rusiyanı prioritet hesab edən ehtiyatlı mövqeyi (Russia-first policy) Azərbaycan əleyhinə sənədlərin qəbul olunması üçün əlverişli şərait yaratmışdı. Lakin regionda baş verən proseslərin konturları daha aydın formalaşdıqca Vaşinqton Azərbaycanın iqtisadi və strateji əhəmiyyətini daha dolğun şəkildə qiymətləndirməyə başladı. Nəticədə, ABŞ enerji resurslarına çıxışın təmin edilməsi, qlobal enerji marşrutlarının şaxələndirilməsi, eləcə də Rusiya və İranın regiondakı təsirinin balanslaşdırılması məqsədilə Azərbaycana münasibətdə daha ardıcıl siyasət həyata keçirməyə başladı. Bu proses isə maneələrsiz olmadı.

Belə ki, həmin dövrdə dövlət katibi Madlen Olbrayt Xəzər dənizinin enerji ehtiyatlarına, dolayısilə Azərbaycana maraq göstərən 14 neft şirkəti, nüfuzlu yəhudi təşkilatları və Nümayəndələr Palatasındakı Respublikaçılar Partiyasının bir qrupu erməni lobbisi ilə qarşı-qarşıya gəldi. Yekunda tərəflər arasında əldə olunan kompromisə görə, Azərbaycandan Gürcüstan və Türkiyə üzərindən Ermənistandan yan keçməklə neft kəmərinin tikintisinə imkan verildi. Bununla yanaşı, Azərbaycana ABŞ yardımının dayandırılması qüvvədə saxlanıldı, Ermənistana və "Dağlıq Qarabağ"a göstərilən yardım isə artırıldı.[7]

Qeyd edilənlərdən bu qənaətə gəlmək olar ki, etnik lobbi qruplarının qanunvericiliyə mənfi təsirləri Vaşinqtonun milli maraqları, strateji hədəfləri və beynəlxalq səviyyədə bəyan edilən məqsədləri ilə uzlaşmır. Əksinə, onun 90-cı illər Milli Təhlükəsizlik Strategiyalarında əsas təhdidlər olaraq qiymətləndirdiyi etnik münaqişələr, beynəlxalq hüquq normalarına məhəl qoymayan dövlətlərin davranışları, kütləvi qırğın silahlarının yayılması, ətraf mühitin deqradasiyası kimi problemlərlə ziddiyyət təşkil edir.

"Ethnic Lobbies and US Foreign Policy" kitabında bu mövzu ilə bağlı tarixə maraqlı bir istinad yer alır. Kitabda qeyd edilir ki, 1999-cu ilin mart ayında NATO Polşa,

---

**[6]Josh DeWind and Renata Segura, "Diaspora Lobbies and the US Government: convergence and divergence in making foreign policy", The Social Science Research Council və New York University Press-in birgə nəşri, 2014, səhifə 252**

**[7]Josh DeWind and Renata Segura, "Diaspora Lobbies and the US Government: convergence and divergence in making foreign policy", The Social Science Research Council və New York University Press-in birgə nəşri, 2014, səhifə 253**

Macarıstan və Çexiyanın ittifaqa qoşulması ilə genişlənərkən ABŞ Prezidenti Bill Klinton və dövlət katibi Madlen Olbrayt bu hadisəni böyük məmnunluqla qarşılamışdılar. Lakin digər dünya liderləri onların bu sevincini eyni şəkildə bölüşmədilər.

Mənbədə vurğulanır ki, bir çoxları bu qərara etiraz edərək bildirirdilər ki, ABŞ-nin rəhbərliyi ilə həyata keçirilən NATO-nun genişlənməsi təşəbbüsü milli və geosiyasi təhlükəsizlik maraqlarından daha çox, ABŞ daxilindəki etnik qrupların siyasi maraqları və daxili siyasətlə əlaqəli idi.

1997-ci ildə Kanadanın Baş naziri Jan Kretyen Belçikanın Baş naziri Jan-Lük Dehan və Lüksemburqun Baş naziri Jan-Klod Yunkerə (və bunu təsadüfən açıq qalmış mikrofon vasitəsilə) demişdi ki, NATO-nun genişlənməsi ona görə baş verir ki, "ABŞ-də etnik seçici qrupları öz maraqlarını irəli sürürlər". Kretyen daha sonra əlavə edərək etirazını belə ifadə etmişdi: "NATO-nun genişlənməsinin dünya təhlükəsizliyi ilə heç bir əlaqəsi yoxdur".[8]

**Nəticə**

Prezident İlham Əliyev IV Şuşa Qlobal Media Forumunda 907-ci düzəlişin birdəfəlik ləğvi ilə bağlı Azərbaycanın mövqeyini aydın şəkildə ifadə etdi:

"Düşünürəm ki, həmin düzəliş Konqres tərəfindən nə qədər tez tam ləğv edilərsə, hamımız üçün, Azərbaycan üçün bir o qədər yaxşı olar. Çünki biz artıq ayrı-seçkiliyə məruz qalmayacağıq və ABŞ Konqresi isə məsuliyyəti, səhvləri etiraf etmək bacarığını, cari geosiyasi vəziyyətə uyğun hərəkət etdiyini göstərə biləcək. Ümid edirik, bunlar baş verəcək. Amma yenə də sizə deyə bilərəm ki, bu günün Administrasiyası ilə həmin 907-ci düzəliş hər hansı mənfi təsirə malik deyil".[9]

Prezidentin çıxışında diqqət çəkən əsas məqam "bu günün Administrasiyası" ifadəsidir. Bu vurğu onu göstərir ki, gələcək administrasiyalar dövründə 907-ci düzəlişi yenidən normativ sənəd kimi gündəmə gətirməyə və ondan siyasi-hüquqi təzyiq vasitəsi kimi istifadə etməyə çalışan qüvvələrin mövcudluğu istisna edilmir.

Bu baxımdan, ABŞ-Azərbaycan münasibətlərinin ayrı-ayrı administrasiyaların siyasi mövqelərindən asılı olmayan, hər iki dövlətin milli maraqlarına, eləcə də regional və beynəlxalq təhlükəsizliyə xidmət edən uzunmüddətli strateji əsaslar üzərində

---

**[8]David M. Paul, Rachel Anderson Paul, "Ethnic Lobbies and US Foreign Policy", published in the United States of America in 2009 by Lynne Rienner Publishers, Inc. 1800 30th Street, Boulder, Colorado 80301 and in the United Kingdom by Lynne Rienner Publishers, Inc. 3 Henrietta Street, Covent Garden, London, səhifə 1**

**[9]Prezident İlham Əliyev IV Şuşa Qlobal Media Forumunun açılışında iştirak edib, https://azertag.az/xeber/prezident_ilham_aliyev_iv_susa_qlobal_media_forumunun_achilisinda_istirak_edib__yenilenib_2_video-4314073**

qurulması vacibdir. Münasibətlər elə möhkəm institusional çərçivəyə salınmalıdır ki, beynəlxalq siyasi konyunkturda baş verən dəyişikliklər və müxtəlif lobbi qruplarının təzyiqləri ABŞ-nin xarici siyasət qərarlarına mənfi təsir göstərə bilməsin.

Prezident İlham Əliyevin qeyd etdiyi kimi, hazırda iki dövlət arasında münasibətlər "əladır və həqiqətən strateji tərəfdaşlıq səviyyəsinə qalxıb".

907-ci düzəliş 1990-cı illərin əvvəllərində ABŞ tərəfindən mürəkkəb və qeyri-müəyyən beynəlxalq şəraitdə, müstəqilliyini yenicə bərpa etmiş, daxili siyasi qarşıdurmalar və müharibə şəraiti yaşayan Azərbaycana qarşı tətbiq edilmişdi. Yəni keçmişin qalığıdır. Lakin bu gün Azərbaycan beynəlxalq hüququn tanıdığı imkanlardan istifadə edərək ərazi bütövlüyünü və suverenliyini bərpa etmiş, regionda yeni reallıqlar formalaşdıran və beynəlxalq təşkilatlarda fəal rol oynayan orta güc kimi çıxış edir.

Bununla yanaşı, qəbul etmək lazımdır ki, 907-ci düzəlişin ləğvi ilə bağlı siyasi iradə mövcud olsa da, qanunvericilik prosesində bu məqsədə çatmaq həmişə asan olmur. Superçoxluğun olmadığı şəraitdə sadə səs çoxluğu da yetərsiz qala bilir.

Bu vəziyyət göstərir ki, mürəkkəb mexanizmlər üzərində qurulan və səhvsizliyi hədəfləyən Konqres sistemi bəzən ölkənin Milli Təhlükəsizlik Strategiyalarında müəyyən edilmiş təhdidlərə qarşı tam effektiv fəaliyyət göstərə bilmir. Çünki obyektiv yanaşmalar hər zaman subyektiv təsirlərə qarşı üstünlük qazana bilmir. Nəticədə isə güclü təşviqat imkanları, maliyyə resursları və siyasi təsir mexanizmlərinə malik maraq qrupları bəzən ABŞ-nin uzunmüddətli milli maraqları ilə uzlaşmayan qanunların qəbuluna təsir göstərə bilirlər.

**Müəllif: Türbət Bağırova, Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin (BMTM) mətbuat katibi**